**Azərbaycan dövlətinə xəyanət kimi tarixə düşən 1993-cü il 4 iyun hadisələrindən 32 il ötür. O vaxt ölkəyə rəhbərlik edən səriştəsiz insanlardan ibarət qruplaşmanın yaratdığı anarxiya, xaos, özbaşınalıq nəticəsində baş vermiş qardaş qırğını yaddaşlardan silinməyib. Silahlı dəstələr ölkədə tüğyan edirdi. Həmin ərəfədə Gəncədə keçmiş korpus komandiri Surət Hüseynovun başçılıq etdiyi hərbi hissələrlə hökumət qüvvələri arasında silahlı toqquşma baş vermişdi. Dövlət idarəçiliyində naşı olan iqtidarın tapşırığı ilə sabiq korpus komandiri Surət Hüseynovun nəzarətində olan 709 saylı hərbi hissənin tərk-silah edilməsi nəzərdə tutulmuşdu. Lakin uğursuz əməliyyat qardaş qırğınına səbəb olmuşdur. Hökumətə tabe olmayan hərbçilərlə toqquşmada 35 nəfər həlak olmuş, çoxlu yaralananlar qeydə alınmış, inzibati, yaşayış binalarına və hava limanına ciddi ziyan dəymişdir. Vahiməyə düşmüş insanlar şəhəri tərk edirdilər. Tankların, ağır texnikaların insanlarda qorxu və təhlükə yaratmışdı. Bu təcrübəsiz, məsuliyyətini dərk etməyən iqtidarı bu heç də maraqlandırmır, nəyin bahasına olursa-olsun, Surət Hüseynovun dəstəsinin tərk-silah olunmasını istəyirdi, buna isə nail ola bilmirdilər. Şəhərdə silahlı insanlar hərəkət edir, atəşlər açır, insanları vahiməyə salırdılar. Gəncəyə göndərilmiş iqtidar nümayəndələri Surət Hüseynovun hərbçiləri tərəfindən girov götürülmüşdülər. Qiyamçılar paytaxt istiqamətində hərəkət edirdilər. Sakinlər nicat yolu axtarırdılar.**

# DÖVLƏTÇİLİYƏ XƏYANƏT EDƏNLƏR CƏZALANDIRILDILAR



Belə ağır zamanda, dövlətin, millətin taleyi "olum, ya ölüm?" dilemması qarşısında qalanda ziyalılar xalqın böyük oğluna, təcrübəli, güclü siyasətçi, qətiyyətli lider Heydər Əliyevə müraciət etdilər. Vətəni, milləti xilas etməyə qadir olan bir siyasi təşkilat yaratmağa, Azərbaycanın mütərəqqi qüvvələrini bu amal ətrafında birləşdirməyə dəvət etdilər. Bəli, xalq özünün sınanmış, təcrübəli liderini hakimiyyətə müstəqil Azərbaycan dövlətini xilas etməyə israrla dəvət etdi. Xalqın qəzəbindən qorxan hökumət də Heydər Əliyevin hakimiyyətə gəlməsini tələb edən ziyalıların səsinə səs verdi. Azərbaycanın görkəmli oğlu, böyük vətənpərvər Heydər Əliyev xalqın bu ağır günündə, xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib iyunun 9-da Bakıya gəldi. Minlərlə insan onu qarşılamağa çıxmışdı. Xalqın gurultulu və sürəkli alqışları ilə təyyarədən enən ulu öndər daxili və xarici düşmənlərimizin bütün planları iflasa uğratdı. Xilaskarlıq missiyasını öz üzərinə götürən bu dahi şəxsiyyət həyatını təhlükə altında qoyaraq, Gəncəyə gəldi. İndi inamla söyləyə bilərik ki, Heydər Əliyevin Gəncəyə səfəri vətəndaş qarşıdurmasının qarşısını aldı. Bəli, onun Gəncəyə səfəri xilaskarlıq missiyası, qətiyyət və cəsarət nümunəsi idi...

Ümummilli liderimiz Gəncədə baş verən hadisələrə münasibət bildirərkən demişdir: "Hadisələr dəhşətlidir. Qan tökülüb, cinayət edilib. Bunlar araşdırılmalıdır və qanunu pozmuş bütün adamlar, cinayətdə iştirak etmiş adamlar, cinayəti təşkil etmiş, hansı tərəfdən asılı olmasına baxmayaraq qanun qarşısında məsuliyyət daşımalıdırlar". Bütün gəncəlilər bu gəlişi böyük ümid və sevinclə qarşıladılar. Bəli, ümummilli lider müstəqilliyin itirilməsi, dövlətçiliyin məhv edilməsi təhlükəsi qarşısında özünün xilaskarlıq missiyasını həyata keçirməyə başladı. Qısa zamanda dahi rəhbərin siyasi iradəsi və xalqın dəstəyi sayəsində ölkədə əmin-amanlığa təhlükə törədən, müxtəlif siyasi maraqlara xidmət edən qanunsuz silahlı dəstələr ləğv olundu, ictimai-siyasi sabitlik bərqərar olundu...

Xalqın qəlbində, tarixində əbədi abidəsini ucaldan ulu öndər Heydər Əliyevin siyasətdə, iqtisadiyyatda və mədəniyyətdə qoyduğu izlər heç vaxt silinməyəcək.

Bu gün Azərbaycan xalqı unudulmaz rəhbərin xoşbəxt gələcəyimiz üçün açdığı yolla qətiyyətlə addımlayır. Ümummilli liderimizin qurub-yaratdığı azad, müstəqil, demokratik Azərbaycan onun müəyyən etdiyi strateji xətlə inamla irəliləyir. Bu xətti əzmlə, dəyanətlə irəli aparan isə ulu öndərin layiqli varisi, dövlət xadimi, miqyasında böyük hörmətə, nüfuza malik Prezident İlham Əliyevdir. Dövlətimiz və xalqımızın həyatı üçün mühüm əhəmiyyət kəsb edən prinsipial məsələlərdə ölkə Prezidenti möhkəm iradə və qətiyyətli mövqe nümayiş etdirir. Azərbaycan dövlətinin qüdrətini, sarsılmaz təmələ malik olduğunu öz məhsuldar fəaliyyəti ilə sübut edir. Prezidentimizin düşünülmüş, uzaqgörən daxili və xarici siyasəti, onun xalqa olan məhəbbəti və doğma Vətənimiz naminə səmərəli fəaliyyəti hər birimizdə qürur hissi oyadır. Xalqımızın firavan gələcəyinin təminatına hesablanmış praqmatik siyasi strategiya sayəsində Azərbaycan regionun lider dövlətinə çevrilmiş, ölkəmizin nüfuzu daha da artmışdır. Cənab İlham Əliyevin səriştəli idarəetmə qabiliyyətinin nəticəsidir ki, indi respublikamız iqtisadi inkişaf tempinə görə dünyanın ən qabaqcıl ölkələrindən biridir. Ulu öndərin qətiyyətlə müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycan dövlətinin uğurlarının bünövrəsində dayanır və həmin siyasət bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**